# TANINMIŞ KARTOQRAF ALİM-PEDAQOQ

**Kartoqrafiya Yer elmləri sırasında xüsusi əhəmiyyətə malik olan bir elm sahəsidir. Bunun sübutu kimi təkcə onu xatırlatmaq kifayətdir ki, xəritə olmadan Yerin fiziki səthində heç bir layihənin, fəaliyyətin yerinə yetirilməsi təcrübi olaraq mümkün deyildir. Xəritənin yaradıcısı isə kartoqrafdır və bu ixtisasa yiyələnmək də kifayət qədər çətindir. Çünki kartoqraf qəlbən saf, təbiətsevər, rəssam təxəyyüllü, səbirli, daima öz üzərində çalışmağı bacaran insan olmalıdır. Kartoqraf peşəsi həm şərəfli, həm çətin, həm də məsuliyyətlidir. Ona görə də respublikamızda bu peşəyə azsaylı mütəxəssislər yiyələnə bilmişlər. Bunlardan biri də Bakı Dövlət Universitetinin geodeziya və kartoqrafiya kafedrasının dosenti, coğrafiya fakültəsinin dekan müavini Ramiz Mirağa oğlu Əhlimanovdur.**

O, 1949-cu il aprelin 17-də Şamaxı şəhərində anadan olmuşdur. 1966-cı ildə Şamaxı şəhər 1 saylı orta məktəbi əla qiymətlərlə bitirdikdən sonra Azərbaycan Dövlət Universitetinin (indiki Bakı Dövlət Universiteti) geologiya-coğrafiya fakültəsinə qəbul olub. Tələbəlik illərində R.Əhlimanov müvəffəqiyyət göstəriciləri, ictimai-siyasi həyatdakı aktivliyi və elmə maraqlarına görə öz həmyaşıdlarından həmişə fərqlənmişdir. Məhz onun xüsusiyyətləri həmin illərdə coğrafiya fakültəsində mühazirələr aparan akademik Həsən Əliyevin diqqətindən yayınmışdı. Ona görə də 1971-ci ildə universiteti əla qiymətlərlə başa vurduqdan sonra o, akademik Həsən Əliyevin məsləhəti və İmtahan komissiyasının qərarı ilə Azərbaycan Elmlər Akademiyasının Coğrafiya İnstitutunda "kartoqrafiya" ixtisası üzrə aspiranturaya qəbul olundu. Aspirantura təhsilini başa vuran R.Əhlimanov 1980-ci ildə coğrafiya elmləri doktoru, professor Rizvan Piriyevin rəhbərliyi ilə "Landşaftların kartoqrafik-riyazi metodlarla tədqiqi (Azərbaycan Respublikası ərazisi timsalında)" mövzusunda dissertasiya işini müdafiə edərək coğrafiya elmləri namizədi, alimlik dərəcəsinə layiq görülmüşdür. Onun dissertasiya işində təbii ərazi kompleksinin və onun komponentlərinin kəmiyyət cəhətdən qiymətləndirilməsi həyata keçirilmişdir.

Ramiz Əhlimanovun landşaft örtüyünün məkan strukturunun üfüqi parçalanmasını hesablamaq üçün ilk dəfə olaraq təklif etdiyi səmərəli düsturların metodiki MDB məkanında bütün mütəxəssislər tərəfindən yüksək qiymətləndirilir və tətbiq olunur. Bu kimi məsələlərin həlli isə təbii ərazi kompleksinin səmərəli istifadə olunmasında böyük əhəmiyyət kəsb edir. Məlum olduğu kimi, son illərdə ölkə iqtisadiyyatının vacib hissəsi olan kənd təsərrüfatına diqqət daha da artırılmışdır. Bu sahədə təsərrüfatların təşkil edilməsində, landşaft-torpaq ehtiyatlarının nəzərə alınmasında R.Əhlimanovun elmi işinin nəticələri, verdiyi tövsiyələr bu gün də çox faydalı ola bilər.

O, 80-dən çox elmi məqalənin, orta məktəblər üçün hazırlanmış kontur xəritələrinin, Azərbaycan Respublikasının Milli Atlasında yer almış və bütövlükdə respublika ərazisi üçün ilk dəfə olaraq tərtib edilmiş "Landşaft və bitki örtüyü" strukturunun törəmə morfometrik xəritələrin (parçalanma, müxtəliflik, mürəkkəblik, müvazinətsizlik və s.), həmçinin tədrisə dair çoxsaylı fənn proqramlarının müəllifidir. Alim bir sıra respublika və beynəlxalq səviyyəli elmi konfrans, simpoziumların iştirakçısı olmuş, elmi məruzələrlə çıxış etmişdir.

Ömrünün böyük hissəsini təhsilə, gənc nəslin təlim-tərbiyəsinə həsr etmişdir desək, yanılmarıq. O, hələ aspirant olduğu illərdən başlayaraq elmi işlərlə yanaşı, Bakı Dövlət Universitetinin coğrafiya fakültəsində kartoqrafiya fənnindən saathesabı əsaslarla dərslər aparmışdır. Gənc olmasına baxmayaraq, onun auditoriyada özünü aparması, tələbələrlə ümumi dil tapmaq, ünsiyyət qurmaq bacarığı, tədris etdiyi fənlər üzrə hazırlıq səviyyəsi və əzmkarlığı, öz işinə məsuliyyətlə yanaşması Geodeziya və Kartoqrafiya kafedrasının müdiri tərəfindən müsbət qiymətləndirildi. 1990-cı ildə o, kafedraya baş müəllim vəzifəsinə dəvət olundu. Bununla Ramiz müəllimin həyat yolunda yeni mərhələ başladı və həmişəlik öz taleyini Bakı Dövlət Universitetinə, coğrafiya fakültəsinə bağlamış oldu.

Dosent R.Əhlimanov Kartoqrafiya, Xəritələrin layihələndirilməsi və tərtibi, Kartometriya və marfometriyanın əsasları, Kartoqrafik tədqiqat üsulları və başqa fənlərdən tələbələrə yüksək səviyyədə mühazirə və məşğələ dərsləri tədris edir, kartoqrafik əsərlərin yaradılmasına dair nəzəri və praktiki biliklər çatdırır.

Ramiz müəllimin tələbələrlə ünsiyyət qurmaq bacarığı, xoş münasibəti, eləcə də yüksək təşkilatçılıq bacarığını görən BDU rəhbərliyi 1991-ci ildə ona etimad göstərərək coğrafiya fakültəsində tədris işləri üzrə dekan müavini vəzifəsini həvalə edib. Bu vəzifədə dos. R.Əhlimanov artıq 28 ildir ki, müvəffəqiyyətlə, qüsursuz çalışır və fakültənin professor-müəllim kollektivi arasında çox böyük hörmət və nüfuz sahibidir, tələbələrin isə sevimli müəllimi, tədrisdə yaranmış çətinliklərin aradan qaldırılmasında məsləhətçisi və güvənc yeridir. Ramiz müəllim Təhsil Nazirliyi, Bakı Dövlət Universitetinin rəhbərliyi tərəfindən dəfələrlə təşəkkürnamə və Fəxri fərmanlarla təltif olunmuşdur.

R.Əhlimanovun yuxarıda göstərilən ictimai-siyasi, elmi-pedaqoji keyfiyyətləri ilə



yanaşı, o, həyata gələndə Allah-taala tərəfindən onun üzərinə çox vacib bir missiya da qoyulmuşdur: öz doğmalarına, bacı və qardaşlarına arxa-dayaq olmaq, sonra özünün nümunəvi ailəsini quraraq övladlarını böyütmək, onlara təhsil vermək, ailələrinin qurulmasında qayğı göstərmək. Lakin bu missiya hələ tamamlanmamışdır, növbəti mərhələdə Ramiz müəllim öz nəvələrinin gələcəyinin təmin olunması haqqında, onların yaxşı təhsil alması, təlim-tərbiyəli, cəmiyyətimiz üçün faydalı şəxsiyyətlər kimi yetişməsi üçün çalışır. Böyük nəvəsi Elbəy artıq BDU-nun beynəlxalq münasibətlər və iqtisadiyyat fakültəsinin tələbəsidir. Bu ilin qış imtahan sessiyasını bütün fənlərdən əla qiymətlərlə başa vurmuşdur. Baba üçün bundan böyük sevinc olarmı?!

Son olaraq onu qeyd etmək lazımdır ki, R.Əhlimanovun həyat, əmək və yaradıcılıq yolu bir çoxları, xüsusilə də həyatda mövqe tutmağın yolunu axtaran gənclər üçün nümunə ola bilər.

Yetmiş illik yubileyiniz münasibətilə BDU-nun coğrafiya fakültəsi və kafedramızın professor-müəllim heyəti, eləcə də çoxsaylı tələbələrimiz adından sizi səmimi qəlbdən təbrik edir, sizə cansağlığı, elmi-pedaqoji yaradıcılığınızda uğurlar, böyük ailənizə əmin-amanlıq arzulayırıq.

**Məqsəd QOCAMANOV,**
**BDU-nun Geodeziya və kartoqrafiya kafedrasının müdiri, professor.**